Xalq qəzeti 2020.- 6 oktyabr.- S.7.

***İndi Qardaş Türkiyənin hər yanından Azərbaycanın haqq işinə dəstək olanların sırası günbəgün artmaqdadır. Azərbaycanın dostlarından olan alanyalı memar Fəxri İgid bildirir ki, bir zamanlar Bakıda, Gəncədə, Qubada, Şəkidə tanış olduğum qardaşlarıma gözünüz aydın deyirəm. Nəhayət ki, 30 il sonra olsa da şanlı Azərbaycan Ordusunun yurdsevər əsgərləri düşmən Ermənistanla haqq mücadiləsinə qalxdılar.***



# Alanyadan Azərbaycana dəstək

Fəxri bəy qeyd edir ki, Türkiyə hər zaman zülmə qarşı çıxış edən dövlət olmuşdur: “Bu, biz türklərin xarakterindən gələn əlamətdir. Bu gün də can qardaşlarımızın – Azərbaycanımızın haqlı davasında, öz torpaqlarını geri qaytarmaq mübarizəsində sonuna qədər mübarizəmizi davam edəcəyik. Əzm və qətiyyətlə işğalçı Ermənistanın hücumlarına qarşı da sonadək azərbaycanlı qardaşlarımızın yanındayıq. İllərdir Azərbaycanın Dağlıq Qarabağdakı haqlı davasına həll yolu təklif etməyənlərin atəşkəs çağırışları səmimi deyil. Ona görə də Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, uğurlu əks-hücum əməliyyatı işğala, otuz ilə yaxın müddətdir davam edən ədalətsizliyə son qoyacaq.

İndi bütün Türkiyə kimi, Alanyada yaşayan türklər də bu fikirdədir. Alanyanın küçələrində qoşa dalğalanan Azərbaycan və Türkiyə bayraqları bu birliyin təsdiqidir. AK Partiyanın Alanya təşkilatının binası önündə bu bayraqlar yanaşı dalğalanır. Ak Partiya Alanya şəhər təşkilatının rəhbərliyi Azərbaycanı dəstəkləmək üçün təşkilatın binasına Azərbaycan və Türkiyə bayraqları asdı. Bu Azərbaycanla Ermənistan arasında 27 sentyabrda başlayan qarşıdurmalara və 27 ildir ki, Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki işğalçılıq siyasətinə AK Partiyanın Alanya təşkilatının sərgilədiyi mövqe olmaqla, Azərbaycana bayraq dəstəyidir. Başkan Mustafa Toklunun dediyi kimi, "Biz hər zaman qardaş Azərbaycanın yanındayıq. Buna görə də şanlı bayraqlarımızı şəhər təşkilatımızın önündən asdıq".

Fəxri bəy daha sonra bildirir ki, Alanya Ticarət və Sənaye Palatasının prezidenti Mehmet Şahin də Ermənistanın xain hücumlarına məruz qalan Azərbaycanı dəstəkləmək üçün iş adamlarına və vətəndaşlara Türkiyə və Azərbaycan bayraqlarını paylatdı. Mehmet Şahin kampaniyaya əvvəlcə nəhəng Türkiyə və Azərbaycan bayraqlarını palatanın inzibati binasının önündə asmaqla başladı.

Məqsədlərinin iki qardaş ölkənin bayraqlarını vitrinlərdə yan-yana yerləşdirmək və beləliklə bütün dünyaya birlik və həmrəylik mesajı vermək olduğunu vurğulayan Alanya Ticarət və Sənaye Palatasının prezidenti açıqlamasında dedi: “Ermənistanın Azərbaycana qarşı başlatdığı çirkin hücumları qınayırıq. "Bir millət, iki dövlət" prinsipi ilə qardaşlıq əlaqələri qurduğumuz Azərbaycanı dəstəkləmək üçün bayraq kampaniyasına başladıq. Bazar ertəsi günündən etibarən pəncərələri iki qardaş ölkənin bayrağı ilə bəzəməkdəyik. Bizim borcumuz azərbaycanlı qardaşlarımıza hər zaman yanlarında olduğumuzu göstərməkdir. Düşünürəm ki, iki qardaş ölkənin həmrəyliyi Ermənistanın türk torpaqlarında planlaşdırılan çirkin oyunların reallaşdırılmasına imkan verməyəcək.

Fəxri bəy bildirdi ki, bazar ertəsi günündən etibarən Alanya Ticarət və Sənaye Palatasının hazırladıqları 1000 ədəd Azərbaycan və Türkiyə bayrağı eyvan və pəncərələrə asmaq üçün paylanıb.

***Namiq QƏDİMOĞLU,***
***“Xalq qəzeti”***